http://www.amu.edu.az

# Təbib

Təsisci: Azərbaycan Tibb Universiteti

Qəzet 1933 - cü ildən çıxır. № 11 (1586) 15 iyun 2014 - cü il Qiymәti 40 qәpik

## "Ana və uşaqların sağlamlığının yaxşılaşdırılması dair 2014-2020-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı



**Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 3-cü bəndini rəhbər tutaraq qərara alıram:**

1. "Ana və uşaqların sağlamlığının yaxşılaşdırılmasına dair 2014-2020-ci illər üçün Dövlət Proqramı" təsdiq edilsin (əlavə olunur).
2. Bu Sərəncamın 1-ci hissəsi ilə təsdiq edilən Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icrasının əlaqələndirilməsi Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinə həvalə edilsin.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev,**
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 13 iyun 2014-cü il.

## Bu sayımızda

Azərbaycan Tibb Universitetinin rəhbərliyi bütün əməkdaşlarını, professor-müəllim heyətini və tələbələrini




münasibətilə təbrik edir!

Azərbaycan Tibb Universiteti ilə İstanbul Bilim Universiteti arasında memorandum imzalanıb 3



Azərbaycan Tibb Universitetində Milli Qurtuluş Günü qeyd edildi 2

Tədris-metodik vəsaitlərin təqdimatı olub 3

Tələbələrin imtahan sınağı uğurla davam edir 4-5




Bakıda üçüncü "Azərbaycan Plastik Cərrahiyyə Günləri və İSAPS kursu" beynəlxalq konfransı keçirilib 6

# Azərbaycan Tibb Universitetində Milli Qurtuluş Günü qeyd edildi

**İyunun 12-də Azərbaycan Tibb Universitetində Milli Qurtuluş Gününə həsr olunmuş tədbir keçirildi.**



Tədbiri giriş sözü ilə açan universitetin rektoru, Milli Məclisin deputatı, akademik Əhliman Əmiraslanov iştirakçıları bayram münasibəti ilə təbrik edərək 15 iyunun sadəcə təqvim bayramı deyil, böyük ictimai, siyasi və tarixi əhəmiyyətə malik bir gün olduğunu bildirdi. Ümummilli lider Heydər Əliyevin 1993-cü il iyunun 15-də yenidən xalqımızın təkidli tələbi ilə siyasi hakimiyyətə qayıtmasını Azərbaycanın çoxəsrlik tarixində taleyüklü möhtəşəm siyasi hadisə kimi dəyərləndirdi: “1991-ci ildən 1993-cü ilin iyununadək bütövlükdə yeni müstəqil dövlətin taleyi ciddi sual altında idi.





O zamankı böhranlı və ağır şəraitdə respublikanın gələcəyini düşünən, reallığı adekvat qiymətləndirməyi bacaran nüfuzlu ziyalılar çıxış yolunu məhz ulu öndər Heydər Əliyevin böyük siyasətə qayıdışında görürdülər.

Belə böhranlı və ağır şəraitdə Azərbaycanı sürətlə fəlakətə sürükləyən məkrli planların qarşısını almağa, düçar olduğu fəlakətlərdən qurtarmağa qadir yeganə şəxsiyyət məhz ulu öndər Heydər Əliyev idi. İyun ayının 9-da xalqın və həm də o zaman çıxılmaz vəziyyətə düşmüş AXC-Müsavat hakimiyyətinin təkidli istəyi ilə Bakıya qayıdan ulu öndər xalqı vətəndaş qarşıdurmasından, müstəqilliyini itirmək təhlükəsindən qurtarmış, çağdaş tariximizə dövlətçiliyimizin xilaskarı, qurucusu kimi daxil olmuşdur.

Ulu öndər Heydər Əliyev dərhal bir qrup ziyalı ilə birgə Bakıdan Gəncəyə yola düşərək baş vermiş silahlı qarşıdurmanın əsl səbəblərini araşdırmış, özünün müdrik və uzaqgörən addımları ilə silahlı qarşıdurmanın miqyasının genişlənməsinin qarşısını almışdır. 1993-cü il iyun ayının 15-də Heydər Əliyevin Azərbaycan Ali Sovetinin Sədri seçilməsi isə ölkədəki kütləvi inamsızlıq, xaos və hərc-mərclik mühitinin aradan qalxmasına, siyasi gərginliyin tədricən azalmasına, sözün həqiqi mənasında, xalqın böyük fəlakətlərdən qurtulmasına real zəmin yaratmışdır. Beləliklə də, 15 iyun Azərbaycanın böyük faciə və dəhşətlərdən qurtulmasının rəmzi ifadəsinə çevrilmiş, xalqımızın qəlbində özünə möhkəm yer tapmış, tarixə Milli Qurtuluş Günü kimi düşmüşdür”.

Rektor qeyd etdi ki, ötən illərdə ümummilli liderin xilaskarlıq missiyası xalqımızın və bütün dünyanın gözü qarşısında cərəyan etmiş, Azərbaycan məhv olmaq



təhlükəsindən qurtularaq gələcəyə inamla baxan güclü bir dövlətə çevrilmişdir. Bu illərdə ulu öndər Heydər Əliyevin gərgin zəhməti və siyasi iradəsi sayəsində reallaşdırdığı nəhəng işlər öz miqyasına görə insanı heyrətə gətirir.

**Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı Nəsib Məhəməliyev** o zaman Azərbaycanda yaranmış çox gərgin daxili ictimai-siyasi vəziyyətə toxunaraq bildirdi ki, cənubda, şimalda separatçılıq meyllərinin güclənməsi, super güclərin təsiri və bütün bölgələrdə cinayətkar qruplaların meydana çıxması, ziyalı sözünün heç bir əhəmiyyət kəsb etməməsi vətəndaş müharibəsinə gətirib çıxarırdı və qardaş qırğınına yol açırdı. Biz artıq 21 il ötəndən sonra bu hadisələri analitik şəkildə təhlil edir, o zamankı hadisələrə bu günün prizmasından yanaşaraq hansı nöqtədən hansı nöqtəyə gəlib çatdığımızı yaxşı xatırlayırıq. O, Azərbaycan Cümhuriyyətinin ilk illərində tez-tez baş verən hökumət dəyişikliyinin qısa bir zamanda ümumi işə vurduğu zərəri yada salaraq qeyd etdi ki, ötən əsrin 88-ci ilindən 93-cü ilə qədər davam edən separatçılıq tendensiyası şəraitində də siyasi hakimiyyət teztez dəyişirdi. Bu baxımdan Heydər Əliyev 15 iyunda Azərbaycan Ali Sovetinin sədri seçilməsəydi hökumətlər yenidən dəyişəcəkdi və Azərbaycan bir dövlət olaraq dünyanın siyasi xəritəsindən silinmək təhlükəsi ilə üz-üzə qalacaqdı. Məhz xalqımız Heydər Əliyev kimi prinsipal, cəsarətli, qətiyyətli bir liderin sayəsində bu bəlalardan xilas ola bildi.

Doğru, dürüst daxili və xarici islahatların nəticəsidir ki, Azərbaycan artıq heç bir beynəlxalq qurumdan asılı olmayan dövlətə çevrilib. Müəyyən faizlərlə kredit almır, əksinə bəzi ölkələrə kredit verir. Valyuta ehtiyatları 53 milyard dolları keçib. Nəinki Bakı şəhərində, Azərbaycanın bütün bölgələrində böyük quruculuq işləri geniş vüsət alıb. Bakı şəhərində təxminən 1 il bundan sonra tarixdə ilk Avropa olimpiya oyunları keçiriləcək ki, bu da Azərbaycan kimi bir dövlət üçün tarixi əhəmiyyətə malikdir.

**Milli Məclisin deputatı, Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatının sədri Məlahət Həsənova** Azərbaycanda 15 iyuna qədər olan dövrü Suriyada, Liviyada, Misirdə, bu gün Ukraynada baş verən olaylarla müqayisə edərək bildirdi ki, Birləşmiş Millətlər Təşkilatının sonuncu minilliyin inkişaf sammitində belə bir fikir səsləndi, tezis kimi bütün dünyaya yayıldı ki, 20-ci əsrin sonu, 21-ci əsrin əvvəli artıq dünyanı liderlər idarə edəcək. Bu, həqiqətən də belə oldu. SSRİ dağıldıqdan və soyuq müharibəyə son qoyulduqdan sonra Azərbaycanı xilas etmək missiyası Heydər Əliyev kimi tarixi bir şəxsiyyətin üzərinə düşdü.

**ATU-nun epidemiologiya kafedrasının müdiri, professor İbadulla Ağayev** tarixin sınaq mərhələsində Azərbaycan xalqının taleyində yazılmış bir qismət payını Allah-təalanın bizə nəsib etdiyini dedi. Azərbaycan xalqının fəxarəti, ləyaqət, qüdrət sahibi olan Heydər Əliyevi məğlubedilməz Əmir Teymurla müqayisə edən professor vurğuladı ki, ulu öndərimiz elə bir zirvəyə yetişdi ki, nə qədər savadsız, səbatsız siyasət dəllalları olsa da, onun yanından belə ötə bilmədilər. Heydər Əliyev səviyyəsi bütün dövrlərdə vəzifə səviyyəsini ötmüşdü. Əgər vəzifə səviyyədən ucadadırsa, sən şəxsiyyətə çevrilə bilməzsən.

Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlməsi xalqın səadəti idi. Heydər Əliyevi Allah sevirdi. Dədə Ələsgərin gözəl bir kəlamı var:

*İyidlər olmasın məğrur,*
*fəthi-nüsrət Xudadandı.*
*Bir Allah istəyən şəxsi*
*sevər, külli-mahal istər.*

Heydər Əliyevi Azərbaycan səmasında günəşə bənzədən natiq onun həm də dünyanın ən nüfuzlu söz sahibi olduğunu söylədi: “Sözümüzü dünyaya çatdıran nüfuz sahibi gəlib çıxmasaydı, indiki yaşayışımız bu səviyyədə olmayacaqdı. Vaxtilə sözümüzü dünyaya çatdırmaq üçün min vasitədən istifadə edirdik. Ancaq qəbul etmirdilər. Onunçün nüfuz sahibi gəlməliydi və gəldi də. Azərbaycan xalqını bu bəlalardan xilas etdi. Heydər Əliyev ruhu qarşısında baş əyib möhtərəm Prezidentimizə sağ ol deyirəm. Mən Heydər Əliyev ideyalarına, Azərbaycan xalqına xidmət edənlərlə dostam və dost da olacam. Yaşasın Heydər Əliyev ideyalarını yaşadanlar”!

**ATU-nun II kurs tələbəsi, Prezident təqaüdçüsü Xatun Məmmədova** Heydər Əliyevin xilaskarlıq missiyasının Azərbaycanın və bütün dünyanın gözü qarşısında cərəyan etdiyini deyərək yaşıdları adından müstəqilliyimizin əbədi və dönməz olduğunu bütün dünyaya sübut edəcəklərini diqqətə çatdırdı.

Tədbirdə ulu öndər Heydər Əliyevin yorulmaz fəaliyyəti, yeritdiyi müdrik daxili və xarici siyasət nəticəsində müstəqilliyimizin dönməz xarakter aldığı, dövlət quruculuğu, milli ordunun formalaşdırıldığı, beynəlxalq aləmdə Azərbaycanın demokratik imicinin artması sahəsində böyük işlər görüldüyü vurğulandı. Həmçinin ulu öndərin ideyalarının və siyasi xəttinin bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsindən və müstəqil Azərbaycan dövlətinin sürətli inkişafından söhbət açıldı.

**Arif MƏMMƏDLİ**

# Azərbaycan Tibb Universiteti ilə İstanbul Bilim Universiteti arasında memorandum imzalanıb

**İyunun 6-da Azərbaycan Tibb Universiteti, İstanbul Bilim Universiteti, Baku City Hospital və Türkiyə Florence Nightingale xəstəxanalar qrupunun təşkilatçılığı ilə Tədris Cərrahiyyə Klinikasında "Endoskopik və robotik cərrahiyyə" mövzusunda konfrans keçirilmişdir.**



Toplantını giriş nitqiylə açan ATU-nun rektoru, millət vəkili, akademik Əhliman Əmiraslanov konfransın gündəliyinə salınmış mövzunun aktuallığını qeyd edərək müasir tibb elmində endoskopik və robotik cərrahiyyənin xüsusi önəm daşıdığını bildirdi. Akademikin sözlərinə görə, hazırda Azərbaycanda müasir cərrahiyyənin yüksək texnologiyalı istiqamətlərindən biri olan endocərrahi əməliyyatlar normal səviyyədə aparılır. Bu tip əməliyyatların keçirilməsi üçün ATU-nun Tədris Cərrahiyyə Klinikasında hər cür avadanlıq və şəraitin yaradıldığını vurğulayan rektor bu sahədə artıq bacarıqlı kadrlarımızın da olduğunu deyib. Elmi forumun əhəmiyyətindən danışan universitetin rəhbəri vurğuladı ki, belə toplantıların universitetimizdə keçirilməsi artıq bir ənənəyə çevrilib ki, bu da gənc mütəxəssislər və rezidentlərimiz üçün xüsusilə faydalıdır.

1992-ci il fevralın 28-də Azərbaycan Təhsil Nazirliyi və Türkiyə Milli Təhsil Nazirliyi arasında əməkdaşlıq haqqında imzalanmış protokolu xatırladan Ə.Əmiraslanov qeyd etdi ki, bu 22 il ərzində universitetimiz Türkiyənin bir çox aparıcı ali təhsil müəssisələri ilə qurduğu elmi əməkdaşlıq sayəsində böyük uğurlar qazanmış, o cümlədən təhsil səhiyyə sahəsində bir sıra nailiyyətlər əldə etmişdir.

İstanbul Bilim Universitetinin rektoru, professor Çavlan Çiftçi başçılıq etdiyi təhsil müəssisəsinin yaradılması tarixindən ətraflı söz açaraq bildirmişdir ki, universitetin əsası 2006-cı il martın 28-də Türkiyə Kardiologiya Fondu tərəfindən qoyulmuşdur. Ali məktəbdə 7 bölmə, o cümlədən tibb, humanitar elmlər fakültələri, Tibb Elmləri İnstitutu, Florence Nightingale xəstəxanasının Ali Tibb Bacısı Məktəbi, elmi laboratoriyaları və s. . fəaliyyət göstərir. Çavlan Çiftçi tədbir iştirakçılarını universitetin hazırkı durumu, elmi–pedaqoji, maddi-texniki bazası ilə bağlı daha ətraflı tanış etmək üçün



video slayd vasitəsilə məlumatlandırdı.

Sonra "Florance Nightingale" xəstəxanalar qrupunun baş həkimi Sinan Aran rəhbərlik etdiyi müəssisənin indiyədək təkcə Türkiyədə deyil Avropada qazandığı nailiyyətlərdən bəhs etmiş və eləcə də bu sahədəki praktiki problemlədən söhbət açmışdır. O, Türkiyədə ilk özəl klinika olan "Florance Nightingale" nin endoskopik və robotik cərrahiyyə sahəsində qazandığı uğurlar barədə də toplantı iştirakçılarını məlumatlandırmış, azərbaycanlı həmkarlarına bu klinikanın qabaqcıl iş təcrübəsini öyrənməkdə yaxından dəstək verəcəklərini söyləmişdir.

Konfransda endoskopik və robotik cərrahiyyəyə dair Baku City Hospitalın rəhbəri professor Surxay Hadıyev "Qaraciyər serrozu fonunda laparoskopik xolesistektomiya", türkiyəli alimlər İlkkan Dünder "Ginekologiya və ginekoloji onkologiyada robotik cərrahiyyənin yeri". Sümer Yamaner "Laparoskopik Kolorektal Cərrahiyyə", Alper Toker "Ağciyər xərçənglərində minimal invazif cərrahiyyə", Talat Kırış "Neyroonkoloji xəstəliklərdə yeni texnologiya və metodlar", Nuru Bayramov "Laparoskopik bariatrik cərrahiyyə" və başqaları müxtəlif mövzularda məruzələrlə çıxış etmişlər. Alimlərin çıxışı tədbir iştirakçıları tərəfindən xüsusi maraqla qarşılanmış və onların etdikləri hər bir məruzə ətrafında ayrı-ayrıca geniş elmi diskussiyalar aparılmışdır.

Toplantının sonunda Azərbaycan Tibb Universiteti ilə İstanbul Bilim Universiteti arasında gələcəkdə tələbə və mütəxəssis mübadiləsi, birgə elmi- praktiki konfrans və simpoziumların keçirilməsi, həmçinin yeni təcrübənin tətbiqi və elmi tədqiqatları aparmaq üçün qarşılıqlı əməkdaşlıq etməyi nəzərdə tutan memorandum imzalanmışdır.

Məlumat üçün onu da qeyd etmək yerinə düşər ki, elə həmin gün Fairmont Baku Fiame Tobers otelində Baku City Hospital Group və Türkiyənin Florence Nightingale xəstəxanalar qrupu arasında da birgə əməkdaşlıq haqqında memorandum imzalanmışdır.

**M.ƏLƏKBƏRLI**

# Tədris-metodik vəsaitlərin təqdimatı olub

**İyunun 4-də ATU-nun Tədris Terapevdik Klinikasının Məlumat Mərkəzində müəllimlər üçün «Tibb təhsilində islahatlar» mövzusunda təlim keçirilib.**

Tədbirin əvvəlində giriş sözü ilə



Beynəlxalq Əlaqələr Şöbəsinin müdiri, dosent Rəhimə Qabulova və Tədris Metodik və İnnovasiyalar şöbəsinin müdiri, professor Akif Qurbanov çıxış edərək son illər Azərbaycan Tibb Universitetində tibb təhsili sahəsində həyata keçirilən innovasiyalar və həmçinin bu işə dəstək olan MUMEENA layihəsi çərçivəsində aparılan işlər barədə məlumat veriblər.

Daxili xəstəliklər kafedrasının dosenti İ.Əfəndiyev CBCR (Case Based Clinical Reasoning) - klinik təfəkkürün inkişaf etdirilməsi metodikası haqda həmkarları qarşısında geniş məruzə söyəyib, metodikanın yaranma və təşəkkül tarixi, mahiyyəti və tibb təhsilində yeri barədə də ətraflı söz açıb. Digər məruzəçi, cərrahi xəstəliklər kafedrasının dosenti N.Zeynalov CBCR və PBL (probleme əsaslanan öyrənmə) metodikalarının müqayisəli xarakteristikasından, onların ATU-da pilot qruplarda tətbiqi təcrübəsindən danışıb.

Tədbirdə həmçinin MUMEENA layihəsinin dəstəyi ilə ərsəyə gətirilmiş" Müasir tibb təhsilinin əsasları" və "Klinik təfəkkürün inkişaf etdirilməsi" tədris-metodik vəsaitlərinin təqdimatı olub. Təlimin sonunda məruzəçilər həmkarlarının suallarını cavablandırıblar.

Təlimlər bir neçə gün müddətində digər kafedraların əməkdaşlarının da cəlb olunması ilə davam etdirilib.

* * *

Tədris Cərrahiyyə Klinikasının dairəvi zalında da yuxarıda adları çəkilən tədris-metodik vəsairlərin təqdimatı olub.

# Tələbələr üçün CBCR metodikası üzrə təlimlər keçirilib



**Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasında MUMEENA layihəsi çərçivəsində müxtəlif kurs tələbələri üçün CBCR (Klinik təfəkkürün inkişaf etdirilməsi) metodikası üzrə təlim başlanıb. İngilis dilində keçirilən tədbirdə layihənin ATU üzrə koordinatoru, Beynəlxalq əlaqələr şöbəsinin müdiri, dosent Rəhimə Qabulova, Cərrahi xəstəliklər kafedrasının dosenti Nadir Zeynalov iştirak ediblər.**

Təlim zamanı tələbələrə MUMEENA layihəsi haqda, o cümlədən Klinik təfəkkürün inkişaf etdirilməsi tədris üsulu haqqında geniş məlumat verilib, proqram çərçivəsində həyata keçirilən innovativ təşəbbüslərdən bəhs olunub. Pilot qruplarda bu metodika ilə təlim görmüş tələbələr üsulun müsbət tərəfləri haqda öz fikirlərini paylaşıblar. İştirakçılara xüsusi anketlər paylanılıb, onlar arasında rəy sorğusu aparılıb. Tələbələrin tədris prosesinə aktiv cəlb olunması yekdilliklə müsbət qiymətləndirilib, bu cür yanaşmanın onların tədrisdə məsuliyyətinin artırılmasına səbəb olacağı bildirilib.

Qeyd edək ki, iyunun 27-də Niderlandın Utrext universitetinin professoru J.T.TenCate layihə çərçivəsində ATU-nun Tədris Terapevtik Klinikasında tələbələr üçün nümunəvi dərs keçəcək.

**ATU-nun mətbuat xidməti**

# Tələbələrin imtahan sınağı

**◆ Azərbaycan Tibb Universitetində iyunun 2-dən etibarən yay imtahan sessiyasına və dövlət buraxılış imtahanlarına start verilib. ATU-nun rektoru, millət vəkili, akademik Əhliman Əmiraslanovun bu ilin aprelin 4-də imzaladığı 171 T saylı əmrinə əsasən, imtahanlar bir ay ərzində davam etməlidir. İmtahanların gedişi, müəllim və tələbələrin təəssüratları ilə bağlı reportaj hazırlamaq qərarına gəldik. Bu məqsədlə iyunun 9-da universitet şəhərciyində olduq. Şəhərcikdə bir qələbəlik var idi. Tələbələr qruplar şəklində bir-birlərinə suallar verir, qabiliyyətlərini sınamaq üçün imtahan otağına girəcəyi anı həyəcanla gözləyirdilər. Dəhlizdə bir sakitlik hökm sürürdü. Çünki imtahan gedirdi. Otaqdan çıxacaq tələbələri gözləyirdik ki, imtahanın gedişi ilə bağlı onlardan münasibət öyrənək. Nəhayət, tilsim sındı... Tələbələrdən biri imtahanı verərək dəhlizə çıxdı. Ona yaxınlaşdıq. Özünü təqdim etdi.**

## Zəhmətin bəhrəsi şirin olur...

**Eldar Cəfərov (Pediatriya fakültəsi IV kurs):**

- İmtahanlara düşən suallar bir az çətin idi. Həyəcanlandım. 48-ni yazdım. 44 bal topladım. Bu imtahandan müvəffəqiyyət qazandım. İmtahanın gedişi ilə bağlı heç bir narazılığım yoxdur.

*Sonra imtahan verən tələbələrdən bir neçəsi ilə söhbətləşməli olduq.*

**Gülər Qasımzadə (Müalicə-profilaktika fakültəsi, I kurs):**

- İmtahan şəffaf keçir. 49 bal topladım, uğur qazandım. İmtahanın gedişinə müdaxilə mümkün deyil.



**Fatimə Həsənova ( Pediatriya fakültəsi, IV kurs):**

- Imtahanın gedişi ilə bağlı heç bir narazılığım yoxdur. Suallar kompüter vasitəsi ilə verilir və cavab da kompüter vasitəsi ilə alınır. Dəyərləndirməni də kompüter özü edir. Burada yalnız obyektivlikdən, şəffaflıqdan söhbət gedə bilər. Kənar müdaxilə yoxdur. Mən 50 bal toplayaraq imtahandan keçdim.

**Pərvin Bayramova (Pediatriya fakültəsi, IV kurs):**

- Çətin imtahan idi. Amma sonda 50 bal topladığıma sevindim. Nəzarət güclüdür. Demək olar ki, hər iki tələbəyə bir nəzarətçi düşür.



Ona görə də imtahan vaxtı tələbələrdən birinin digərinə kömək etməsi mümkün deyil.

**Nərmin Məmmədli (II Müalicə-profilaktika fakültəsi, I kurs):**

- İmtahanın gedişi məni qane etdi. Şəffaf keçir. Uğur qazana bildim.

**Elturan Əliyev (II müalicə-profilaktika fakültəsi, I kurs):**

- İmtahanlar şəffaf keçir. Uğur qazandım. Hər şey qaydasındadır.

**Sadiq Cəfərli (Pediatriya fakültəsi, IV kurs):**

- İmtahan çox obyektiv və şəffaf keçdi. 48 bal toplaya bildim. 3 ildir bu sistemlə imtahan verirəm. Narazılığım yoxdur.



**Leyla İbrahimova ( Pediatriya fakültəsi, IV kurs):**

- Həyəcanlıyam. Bir az çətin idi. Həyəcanımı artıran səbəblərdən biri də 50 bal toplayaraq müvəffəqiyyət qazanmağımdır. İmtahan həyəcanım sevincimə qarışıb.

**Professor Mehman Əliyev (Pediatriya fakültəsinin dekan müavini):**

- Hər şey qaydasındadır. Bu sistemin tətbiqi və imtahanın gedişindən tələbələr razıdır. Əksəriyyəti yüksək bal toplayır. Hələ ki, imtahanın gedişi və ya hansısa səbəblə bağlı tələbələrin şikayətinə rast gəlməmişəm.

**Məhəmməd Səid Vəfa: (Müalicə işi fakültəsi, IV kurs, Sudan vətəndaşı):**



-İmtahana hələ girməmişəm, gözləyirəm. Patoloji anatomiya fənnindən özümü sınayacağam. Patoloji fiziologiya fənnindən kəsirim var. Amma hesab edirəm ki, bu gün müvəffəqiyyət qazanacaq, gələcəkdə kəsirimi düzəldəcəyəm.

## "Tələbələrin həm bacarığı, həm də nəzəri bilikləri dəyərləndirilir"

**Aydın Məmmədov (Tibbi-profilaktika və tibbi-biologiya fakültəsinin dekanı):**

- Bizdə tədris Avropa kredit



sistemi ilə aparıldığı üçün son illərdə dövlət buraxılış imtahanları iki mərhələdə keçir. Birinci mərhələdə tələbələrin təcrübi bacarıqları, ikinci mərhələdə isə həmin fənn üzrə nəzəri biliklər kompüter – test imtahanları vasitəsi ilə dəyərləndirilir. Hər iki mərhələ ayrı-ayrılıda 50 ballıq şkala ilə müəyyənləşdirilir.

Sonra hər iki mərhələdə qazanılan ballar cəmləşdirilir və tələbənin ümumi fənn üzrə hansı qiymət aldığı bəlli olur. Burada istər bacarıq, istərsə də nəzəri biliklərdə keçid balı ayrı-ayrılıqda 17 bal nəzərdə tutulur. Tələbə əgər 17 baldan yuxarı toplayarsa, ümumi balın üzərinə gəlinir. Əgər 17 baldan az toplayarsa, tələbə imtahandan müvəffəqiyyət qazanmamış hesab olunur və təkrar imtahana saxlanılır. Təkrar imtahan isə növbəti ilə təyin olunur.

Bizdə belə bir qayda qəbul olunubdur: ixtisas fənləri üzrə hər bir kreditə 250-300 sual müəyyən edilib. Tutaq ki, hansısa tələbədə 4 kreditdirsə, 1000-1200 sual ola bilər. Yəni fənn proqramından asılı olaraq, tələbəyə cavablandırmaq üçün kompyuter vasitəsi ilə 50 sual verilir. Tələbənin hər bir düzgün cavabı ona 1 bal



qazandırır. Hər bir tələbənin ayrıca kodu var. O, kompyuter arxasına oturandan sonra kodu kompyuterə daxil edir. Ona verilən suallar ekranda görünür. Tələbə başlayır sualları cavablandırmağa. Əgər düzgün cavab verməsə, düzgün olmayan cavab düzgün cavabın müəyyən hissəsini silir.

Tələbə sualları cavablandırıb qurtaran kimi onun neçə bal toplaması kompyuter vasitəsilə avtomatik müəyyənləşdirilir.



Hazırda 30 nəfər tibbi-biologiya, 44 nəfər isə tibbi-profilaktika ixtisasları üzrə imtahana qatılıb.

# uğurla davam edir

### "Bütün texniki problemləri aradan qaldırmışıq"

**Şahin Bayramov: (Virtual Test Mərkəzinin direktoru):**

- Sxem qurulandan bizdə texniki problem qeydə alınmayıb. Elektrik enerjisinin kəsiləcəyi təqdirdə ehtiyat variant fikirləşmişik ki, tələbələrimiz hansısa çətinliklə üzləşməsinlər. Əgər ani olaraq elektrik enerjisində problem yaranarsa, 10 saniyə ərzində generatorlarımız işə düşür və heç bir sıxıntı olmadan tələbələrimiz imtahan verirlər. Yəni işimizə mane olacaq bütün məqamları aradan qaldırmışıq.

İmtahan yay sessiyası bu ayın 2-də başlayıb. Lazım olan texniki işlər görülüb. Testlər toplanaraq hər bir fənn üçün 50 variant hazırlanıb. Bu günkü günədək **(iyunun 9-u nəzərdə tutulur.)** 5000 imtahan olub və heç bir problem qeydə alınmayıb. Hazırda 79 imtahan gedir və hər cərgədə 4-5 nəzarətçi var. Nəzarətçilər də qeyri-ixtisas sahibləridir ki, subyektiv müdaxilə edə bilməsinlər. Bir sözlə, hər şey qaydasındadır.







**Erkan Dinc (Müalicə işi fakültəsi, II kurs, Türkiyə vətəndaşı):**

- Kəsirim yoxdur. Yaxşı çalışdım, başarılı oldum. İmtahanın gedişindən razıyam.

Daxili xəstəliklər üzrə ixtisas fənnindən də dövlət buraxılış imtahanı keçirilirdi. **II müalicə-profilaktika fakültəsi üzrə Attestasiya Komissiyasının sədri, professor Teymur Qafarovun** bildirdiyinə görə, imtahanlar çox mütəşəkkil şəkildə keçir. Tələbələrin bilik və bacarığının onu qane etdiyini söyləyən professor, əksər tələbələrin əla və yaxşı qiymətlər aldığını və buna görə sevindiyini də vurğuladı.







### İmtahan verən sonuncu kurs tələbələri

**Aynur Məlikova (II Müalicə işi fakültəsi, VI kurs ):**

- Bu gün daxili xəstəliklər fənnindən imtahanımız oldu. İmtahan şəffaf keçdi və mən əla qiymət aldım. İmtahanı müvəffəqiyyətlə verən tələbə yoldaşlarım da olub. Hazırda imtahan gedir. İmtahanı verəcək tələbələrə də uğurlar arzulayıram.

**Aygün İmanova (II Müalicə işi fakültəsi, VI kurs):**

- İmtahanın gedişindən və müəllimlərimizdən razıyam. Əla qiymət aldım. Buna çox sevinirəm.

### Valideynlər də razıdır

**Quliyeva Nailə (valideyn):**

- Qızım pediatriya fakültəsinin IV kursunda oxuyur. İndiyədək keçirilən imtahanlardan narazılığımız olmayıb. İnanıram ki, indi də olmayacaq. Həmişə qızım məni sevindirib. Hesab edirəm ki, bu dəfə də belə olacaq.

**Cəmilə Cəfərova (valideyn):** Tibbi profilaktika fakültəsinin V kursunda oxuyan qızım **Aygül Aydınlını** imtahan verməyə gətirmişəm. Əlaçıdır. İndiyədək verdiyi imtahanlarda obyektivlik qorunub saxlanıb. Əminəm ki, qızım əla qiymət alacaq.





Tələbələrin həyəcanlı anları da diqqətimizdən yayınmadı. Ağac kölgəsində, skamyada oturaraq tələbələr bir-birlərinə suallar verirdilər. Müalicə işi fakültəsində oxuyan **Əfsanə, Fidan və Nərmin** adlı tələbələr məşğul olduqlarından onlara yaxınlaşdığımızı hiss etmədilər. Yəqin bu, imtahanın həyəcanından idi. İmtahanın başlama vaxtını soruşduq. Dedilər imtahan 10.30- da başlayacaq. Hələ vaxta var idi. Onlara uğur arzulayaraq ayrılırıq.

Əczaçılıq fakültəsinin II kurs tələbələri **Telli Əlizadə, Aidə Əliyeva, Nərmin Əlimərdanlı** da testə düşəcək sualların cavablarını təkrarlayırdılar. İmtahandan uğur qazanacaqlarına əminliklə cavab verdilər.

### "Tələbələrin hazırlıq səviyyəsi qaneedicidir"

**Rəqsanə Məmmədova (Ə.Əliyev adına Həkimləri Təhkimləşdirmə İnstitutunun dosenti, Pediatriya fakültəsi üzrə Attestasiya Komissiyasının sədri):**

- İkinci ildir ki, komissiyaya sədrik edirəm. Hər şey öz qaydasındadır. Tələbələr hansı bilik və bacarığa malikdirlərsə, dəyərləndirilir. Qiymətlər müəllimlər tərəfinən obyektiv verilir. Problem yoxdur. 5 qrup tələbə imtahan verəcək, indiyədək 15 tələbə imtahandan keçib və hamısı qiymət alıb.

**Çingiz Quliyev (Uşaq cərrahiyyəsi kafedrasının müdiri, professor)**

- İmtahan tam obyektiv şəraitdə gedir. Tələbələrin hazırlıq səviyyəsi bizi qane edir. Hələ ki, qeyri-kafi alan yoxdur.

**Nəriman Nağıyev (Pediatriya fakültəsinin dekanı):**

- Artıq bu gündən dövlət buraxılış imtahanı başlayıb. 4 gün ərzində Uşaq cərrahlığı üzrə 186 tələbəmiz imtahan verəcək. Imtahanlar obyektiv və şəffaf keçirilir. 14 tələbəmiz fərqlənmə diplomuna namizəddir.

*İmtahan qarşısında dayanmaq həqiqətən çətindir. Adamı həyəcanlandırır. Uğur qazananda isə cəmiyyətdə özünütəsdiqə səbəb olur. Tələbələrə verəcəkləri imtahandan alnıaçıq, üzüağ çıxmaq arzusu ilə onlardan ayrılırıq. Bir də arzu edirik ki, onlar savad, bilik, bacarıqları ilə gələcəkdə xalqımıza fayda versinlər.*

**Qabil ABDULLAYEV**
**Fotolar Cənnətalı ÇINGIZINDIR**

# Bakıda üçüncü "Azərbaycan Plastik Cərrahiyyə Günləri və İSAPS kursu" beynəlxalq konfransı keçirilib

**Bakıda üçüncü "Azərbaycan Plastik Cərrahiyyə Günləri və İSAPS kursu" beynəlxalq konfransı öz işinə başlamışdır.**

Konfrans Azərbaycan Plastik Cərrahiyyə İctimai Birliyi, Azərbaycan Tibb Universiteti (ATU) və Beynəlxalq Plastik Cərrahiyyə Cəmiyyətinin (İSAPS) birgə təşkilatçılığı ilə baş tutmuşdur.

ATU-nun Tədris-Cərrahiyyə Klinikasında keçirilən konfransda Fransa, Rusiya Federasiyası, İran və





Türkiyənin aparıcı plastik cərrahları ilə yanaşı, yerli mütəxəssislər də iştirak ediblər.

Konfransın əsas məqsədi ölkəmizdə plastik cərrahiyyənin inkişafına töhfə vermək, əcnəbi mütəxəssislərlə birgə fikir mübadiləsi aparmaq və tibb elminin bu sahədəki son yeniliklərini müzakirə etmək olub.

Konfransda açılış nitqi ilə çıxış edən ATU-nun rektoru, millət vəkili, akademik Əhliman Əmiraslanov dedi ki, universitetimizin potensial imkanları ildən–ilə artırdıqca, maddi-texniki bazası möhkəmləndikcə onun elmi-pedaqoji səvyyəsi də müasir tələblər əsasında yüksəlməkdədir. On il bundan öncə plastik cərrahiyyənin respublikamızda demək olar ki, hələ inkişaf etmədiyini söyləyən rektor xalqımızın ümummilli lideri Heydər Əliyevin səhiyyə siyasətinin məntiqi davamı olaraq Prezident İlham Əliyevin bu sahəyə xüsusi diqqət ayırdığını , ölkəmizdə plastik və rekonstruktiv cərrahiyyənin inkişafına səbəb olduğunu vurğulamışdır. Sözünə davam edən natiq bildirmişdir ki, o zamanlar tibbin bu sahəsində kadr problemimiz olduğundan belə xəstələr xarici ölkələrə üz tuturdular. Lakin qısa müddət ərzində rezidentlərimiz qardaş Türkiyə Cümhuriyyətinin tanınmış klinikalarında mükəmməl təhsil aldıqdan sonra ölkəmizə döndülər və onlar hazırda insanlarımıza yüksək səviyyədə tibbi xidmət göstərirlər. Ə.Əmiraslanov dedi ki, indi universitetimizdə belə beynəlxalq konfransların təşkili və keçirilməsi artıq bir ənənə şəkli alıb: "İnanıram ki, üçüncü "Azərbaycan Plastik Cərrahiyyə Günləri və İSAPS kursu" plastik və rekonstruktiv cərrahiyyənin inkişafına öz töhfəsini verəcəkdir. Bakıda keçirilən bu tipli konfranslara beynəlxalq aləmin diqqətinin artması isə bizim doğru yolda olduğumuzun göstəricisidir", - deyə akademik Ə.Əmiraslanov bildirmişdir.

Çıxışının sonunda konfransın işinə uğurlar arzulayan ATU-nun rektoru konfrans zamanı İSAPS kursunun təşkilinin xüsusilə gənc həkimlərə çox faydalı olduğunu və eyni zamanda iki gün davam edən bu toplantının azərbaycanlı həkimlərə dünyanın ən qabaqcıl mütəxəssisləri ilə bir yerdə tibbin bu sahəsinin son nailiyyətlərini müzakirə etmək imkanı verəcəyini söyləmişdir .

Sonra universitetin elmi işlər üzrə prorektoru, professor İbrahim İsayev konfransın plenar hissəsinin gündəliyini elan edərək sözü məruzəçilərə verdi.

Plenar iclasda İSAPS kursunun rəhbəri Nazim Çerkeş çıxışında Azərbaycanın ildən–ilə sürətlə inkişaf etdiyini, xüsusilə Azərbaycan Tibb Universiteti şəhərciyinin daha da gözəlləşdiyini, bir -birindən möhtəşəm tədris korpusları və klinikalarının tikilib istifadəyə verilməsi və onların ən müasir avadanlıqlarla təchiz olunması onda xoş təəssüratlar yaratdığını dilə gətirmişdir.

Azərbaycan Plastik Cərrahiyyə İctimai Birliyinin sədri, professor Vaqif Qələndərov isə ölkəmizdə səhiyyəyə göstərilən dövlət qayğısından danışmışdır. O, qeyd etmişdir ki, ölkə başçısı cənab İlham Əliyevin diqqət və qayğısı sayəsində bütün sahələrdə olduğu kimi respublikamızda fəaliyyət göstərən sağlamlıq mərkəzlərində də əsaslı təmir işləri aparılmış və yeni inşa edilmiş 500-dən artıq tibb müəssisəsinin ən müasir avadanlıqlarla təchiz olunması Azərbaycanda plastik cərrahiyyənin inkişafı üçün də geniş imkanlar açmışdır.

Sonra konfrans öz işini bölmə iclasları üzrə davam etdirmişdir. Bölmə iclaslarında üzün cavanlaşdırılması, burunun plastikası, dərinin müəyyən hissələrində liftinq, habelə üz dərisinin tabii yolla cavanlaşdırılması, mammoplastika, o cümlədən, plastik cərrahiyyədə son elmi nailiyyətlər və qarşıda duran problemlərlə bağlı məruzələr dinlənilənilmiş və geniş müzakirələr aparılmışdır. Müzakirələrdə qeyd edilmişdir ki, bu beynəlxalq konfransın proqramı hazırlanarkən plastik və rekonstruktiv cərrahiyyə sahəsindəki mübahisəli olan problemlərə daha çox yer ayrılmışdır.

İki gün davam edən üçüncü "Azərbaycan Plastik Cərrahiyyə Günləri və İSAPS kursu" iyunun 1- də başa çatmışdır.

**MƏNSUR**

**Kitabxana informasiya sistemi müasir dövrdə layiqincə inkişaf etmiş və etməkdədir. Artıq xeyli vaxtdır ki, respublikamızın əksəriyyət ali təhsil müəssisələrinin kitabxanalarında avtomatlaşdırma–elektronlaşdırma işləri müvəffəqiyyətlə həyata keçirilir.**



# Elektronlaşdırma kitabxanadan istifadəni asanlaşdırır

Bu günlərdə Azərbaycan Memarlıq və İnşaat Universitetinin Kitabxanasında elektron kitabxananın təqdimatına dəvət olunmağımız da buna sübutdur. Təqdimatda çıxış edən kitabxana işçilərinin verdiyi məlumata əsasən elektron kitabxananın fonduna 3000 kitab və universitetin professorlarının məqalələri salınmışdı.

Bundan başqa respublikamızın şəhər və rayon Mərkəzi Kitabxanaları üçün metodik mərkəz olan C.Cabbarlı adına Gənclər Kitabxanasında "Kitabxana informasiya şəbəkəsinin müasirləşdirilməsi" və "Kitabxana internet resurslarından istifadənin təkmilləşdirilməsi, kitabxanaların web saytlarının elektron kitabxana və elektron kataloqların, Hüququ İnformasiya Mərkəzinin işinin tənzimlənməsi" mövzusunda treninqlərdə iştirak etməyimiz də kitabxanamızda mühüm irəliləyişlər olacağına ümid verir.

Azərbaycan Tibb Universitetinin Əsaslı Kitabxanasında da hazırda elektron kitabxana üçün kifayət qədər material - mənbələr var. Kitabxanada fondun İRBİS -64 proqramı vasitəsi ilə elektron kataloquna salınması işinə 2010-cu ildən başlanmış, bu gün də iş uğurla davam etdirilir. İndiyə kimi elektron kataloquna 15.216 kitab salınmışdır. İnternet vasitəsi ilə hər bir oxucu dünyanın istənilən yerindən Əsaslı Kitabxananın fondu ilə tanış olmaq, o cümlədən istənilən ədəbiyyatın axtarışını, hətta elektron kitabxana olduqda lazımi ədəbiyyatı əldə etmək imkanından istifadə edəcək.

Hazırda kitabxana üçün vacib olan məsələlərdən biri də elektron kitabxananın yaradılmasıdı. Bu işlə bağlı Universitet rəhbərliyinin qayğısı daim diqqət mərkəzindədir. Ümid edirik ki, bu yaxınlarda elektron kitabxana üçün iri həcmli skaynerin alınması məsələsi də həll olunacaq.

Elektron kitabxananın yaradılmasında Universitet əməkdaşlarının yazdıqları dərslik, dərs vəsaitləri və monoqrafiyaların elektron variantının kitabxanaya verilməsinin də çox mühüm əhəmiyyəti var. Ona görə professor-müəllim heyətindən xahış edərdik ki, öz kitablarının elektron variantını Əsaslı Kitabxanaya təqdim etsinlər. Bu işin xeyli dərəcədə yüngülləşməsinə köməklik edər, həm də oxucularımızın: professor – müəllim heyətinin, tələbələrin, elmi işə cəlb olunmaq istəyən gənc həkimlərin elmə doğru gedən yolunu asanlaşdırar.

Bəli, Əsaslı Kitabxanada elektron kitabxananın yaradılması elmi-tibbi ədəbiyyatın istifasdəsinin müasirləşməsinə mühüm bir töhfə olacaq. Tibbi cəmiyyətin informasiyalaşdırılması prosesinin aktivləşməsinə xidmət edəcək. Bununla da hər bir oxucu lazım olan ədəbiyyatın vaxt itirmədən əldə edilməsinə nail olacaq.

**Saşa ƏLİYEV,**
*Əsaslı Kitabxananın direktorunun elmi işlər üzrə müavini*

# BMT-nin xüsusi məruzəçisi "fastfud" təhlükəsi barədə xəbərdarlıq edir

**Hamburqer, pittsa, çips, şəkərli sulara və sağlamlığa ziyan vuran digər məhsullara aludə olmaq piylənməyə gətirib çıxarır. Bu xəbərdarlığı barədə BMT-nin hər kəsin ən yüksək fiziki və psixi sağlamlı hüququ məsələsinə dair xüsusi məruzəçisi Anand Qrover etmişdir.**

AzərTAc BMT-nin Xəbərlər Mərkəzinə istinadla xəbər verir ki, Anand Qrover Cenevrədə İnsan Hüquqları Şurasının 26-cı sessiyasının nümayəndələri qarşısında çıxışında vurğulamışdır ki, yanlış qidalanmaya – "fastfuda" meylli olmaq piylənmə ilə nəticələnir. Piylənmə hər il təxminən 2,8 milyon insanın həyatına son qoyan qlobal epidemiyaya çevrilmişdir.

Ziyanlı məhsulların cüzi miqdarda yeyilməsi və daha sağlam yeməklərlə uyğunlaşdırılması sağlamlıq üçün bir o qədər də təhlükəli deyildir. Lakin cəlbedici dad keyfiyyətləri və aqressiv marketinq sayəsində tərkibində şəkər, duz, transyağ turşuları və doymuş yağlar olan məhsullar daha faydalı məhsulları rasiondan sıxışdırıb çıxarır. "Fastfud" məhsullarının böyük əksəriyyəti əsaslı şəkildə emal olunur və hazır vəziyyətdə təklif olunur. Faydalı bəsləyici keyfiyyətlərdən tamamilə məhrum olan bu məhsullar çox artıq kalorilidir.

BMT-nin xüsusi məruzəçisi qeyd etmişdir ki, zəmanəmizdə 2.1 milyard insan artıq çəkidən və piylənmədən əziyyət çəkir. Bunun səbəbkarı isə qeyri-sağlam qidalardır.

Xüsusi məruzəçi dünya dövlətlərinə müraciət edərək, isrARla onları əhalinin sağlamlığını təhlükə altında qoyan ərzaq sahəsində struktur dəyişiklikləri ilə bağlı problemlərin həlli ilə məşğul olmağa çağırmışdır. O xatırlatmışdır ki, sağlam olmaq hüququnu müəyyən edən əsas amillərdən biri yetərincə və dolğun qidalanmadır.

# Bakıda Azərbaycan gənc qan donorlarının birinci forumu keçirilmişdir

**İyunun 14-də Bakıdakı "Hilton" mehmanxanasında Azərbaycan gənc qan donorlarının birinci forumu keçirilmişdir.**




14 İyun - Ümumdünya Qan Donoru Günü münasibətilə keçirilən forum Səhiyyə Nazirliyi İctimai Səhiyyə və İslahatlar Mərkəzinin (İSİM), Azərbaycan Qızıl Aypara Cəmiyyətinin, Qan Donorları Assosiasiyasının, Gənclər üçün Təhsil Mərkəzinin və Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının (ATGTİ) birgə əməkdaşlığı çərçivəsində baş tutmuşdur. Forumun məqsədi Azərbaycanda könüllü və təmənnasız qan donorluğunun inkişafına dəstək verməkdir.

Dövlət və hökumət rəsmilərinin, QHT nümayəndələrinin və qan donorlarının iştirak etdikləri forumda Azərbaycan Respublikasının dövlət himni səsləndirilmiş, qan donorluğu ilə bağlı videoçarx nümayiş olunmuşdur.

Sonra İSİM-in layihələrin əlaqələndirilməsi şöbəsinin müdiri Səbinə Babazadə çıxış edərək demişdir ki, 2005-ci ilin mayında Dünya Səhiyyə Təşkilatının Assambleyasında könüllü qan donorluğunu dəstəkləyən bəyanat qəbul edilmişdir. Bəyanatda hər il 14 iyun tarixinin Ümumdünya Qan Donoru Günü kimi keçirilməsi qərara alınmışdır. Bu əlamətdar günün qeyd edilməsinin məqsədi bir daha könüllü qan donorlarına hörmət və ehtiram nümayiş etdirmək, cəmiyyətdə donor qanına olan ehtiyac və zəruriyyəti vurğulamaq, donorluğa yeni insanları cəlb etməkdir. Bildirilmişdir ki, hazırda bütün dünyada təhlükəsiz donor qanına ehtiyac artmaqdadır. Təcrübə göstərir ki, ən təhlükəsiz qan məhz könüllü və təmənnasız donorların qanıdır. Təhlükəsiz qan, onun komponentləri və preparatları hər il hamiləlik və doğuş zamanı ağırlaşması olan anaları, körpə uşaqları, xəsarət alanları ölümdən xilas etməyə kömək edir.

Qeyd edilmişdir ki, 2004-cü ildən etibarən 14 İyun - Ümumdünya Donor Günü Azərbaycan Qızıl Aypara Cəmiyyəti tərəfindən təntənəli surətdə qeyd olunur. Həmin gün qan verən şəxslərə xeyirxah addımlarına görə xüsusi minnətdarlıq bildirilir. Azərbaycan Qızıl Aypara Cəmiyyəti könüllü və təmənnasız qan donorlarının sayının artırılması sahəsində fəaliyyətini davam etdirməkdədir.

Diqqətə çatdırılmışdır ki, Səhiyyə Nazirliyinin "2011-2015-ci illər üçün qanın, qan komponentlərinin donorluğu və qan xidmətinin inkişafına dair Tədbirlər Proqramının həyata keçirilməsi" və "Qan xidməti müəssisələrinin şəbəkəsinin optimallaşdırılması və fəaliyyətinin təkmilləşdirilməsi" barədə əmrləri donor qanına tələbatın ödənilməsinə yönəldilmişdir. Lakin donorluğun inkişafı üçün tək Səhiyyə Nazirliyi deyil, digər qurumlar, tanınmış insanlar və kütləvi informasiya vasitələri də öz töhfələrini verməlidirlər.

Forumda Azərbaycan Qızıl Aypara Cəmiyyətinin vitse-prezidenti Qafar Əsgərzadə, Bahadur Eyvazov adına Elmi Tədqiqat Hematologiya və Transfuziologiya İnstitutu Mərkəzi Qan Bankının baş həkimi Pərvanə Hacıyeva, Qan Donorları Assosiasiyasının sədri Fuad Əsgərov, Gənclər üçün Təhsil Mərkəzinin sədri Fəxrəddin Həsənov, ATGTİ-nin sədri Şahin İsmayılov və Marneuli Gənclər Mərkəzinin nümayəndəsi Emin Əhmədov çıxış edərək ilk dəfə keçirilən forumun Azərbaycanda könüllü və təmənnasız qan donorluğunun inkişafına dəstək verəcəyini vurğulamışlar.

Forumun işinə uğurlar arzulayan Azərbaycan Respublikası Prezidenti Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin tərkibində yaradılmış gənclər təşkilatları ilə iş sektorunun müdiri Vüsal Quliyev belə bir tədbirin keçirilməsinin cəmiyyətə mesaj vermək baxımından əhəmiyyətini vurğulamışdır. Bildirmişdir ki, gənclər təşkilatları qan donorluğunun inkişafı istiqamətində fəaliyyətlərini daha da gücləndirməlidirlər.

Qan donorluğunun inkişafına töhfələr vermiş təşkilatlara, eləcə də könüllü donorlara diplomlar təqdim edildikdən sonra forumda gələcək fəaliyyətlər müzakirə edilmiş və tövsiyələr hazırlanmışdır.

# Ələkbərov Müzəffər Zülfüqar oğlu

**Universitetimizin kollektivinə ağır itki üz vermişdir. Bu günlərdə Azərbaycan Respublikasının əməkdar həkimi, ehtiyatda olan tibb xidməti polkovniki Ələkbərov Müzəffər Zülfüqar oğlu uzun sürən xəstəlikdən sonra dünyasını dəyişmişdir.**



Müzəffər Ələkbərov 1928-ci il iyunun 23-də Goranboy rayonunun Qızılhacılı kəndində ziyalı ailəsində anadan olmuşdur. O, 1951-ci ildə ADTİ-un müalicə-profilaktika fakültəsinin V kursunu başa vurub təhsilini Xarkov Tibb İnstitutunun hərbi tibb fakültəsində davam etdirib. 1955-ci ildə həmin fakültəni fərqlənmə diplomu ilə bitirərək Orta Asiya hərbi dairəsində hərbi həkim kimi fəaliyyətə başlamışdır.

1960-cı ildə Leninqrad Hərbi Tibb Akademiyasının komanda fakültəsinə daxil olmuş və 1964-cü ildə həmin fakültəni fərqlənmə diplomu ilə bitirmişdir. Belorusiya hərbi dairəsində tank qoşunları diviziyasında tibb xidməti rəisi vəzifəsinə təyin olunmuşdur.

1969-cu ildə Azərbaycan Dövlət Tibb İnstitutunun hərbi kafedrasında baş müəllim və tədris hissə müdiri vəzifəsinə təyin olunmuşdur. Universitetin xalq nəzarəti komitəsinin sədri və partiya komitə katibinin müavini vəzifəsində işləyərkən öz təşəbbuskarlığını və işgüzar qabiliyyətini göstərmişdir. Universitet rəhbərliyi tərəfindən Müzəffər müəllimin fəaliyyəti dəfələrlə fəxri fərmana layiq görülüb.

1982-ci ildə SSRİ Təhsil Nazirliyinin "Təhsil əlaçısı" adlı döş nişanı ilə təltif olunub.

Müzəffər Ələkbərov ölkəmizdə ali təhsilli hərbi həkimlərin hazırlanmasındakı xidmətlərinə görə Azərbaycan Respublikasının "Əməkdar həkim"i fəxri adını alıb.

O, bir qarış torpaq verməyən Goranboy rayonunun erməni daşnaklarından azad olunması əməliyyatı üçün planın hazırlanmasında fəal iştirak etmiş və yaralıların müalicə-təxliyə təminatına şəxsən rəhbərlik etmişdir.

1993-cü ildən 2000-ci ilə kimi ATU-nun hərbi kafedrasının rəisi vəzifəsində çalışmışdır.

2001-2013-cü illərdə Mülki Müdafiə Tibb Xidmətinin Təşkili kursunun müdiri işləmişdir. Müzəffər müəllim Qarabağ müharibəsi veteranı idi.

Onun əziz xatirəsi dostlarının və doğmalarının qəlbində daim yaşayacaqdır.

**Allah rəhmət eləsin, qəbri nurla dolsun!**

*Mülki Müdafiə Tibb Xidmətinin Təşkili kursunun kollektivi*

# Nomofobiya – mobil telefonsuz qalmaq qorxusudur

**Nomofobiya – mobil telefondan istifadə etməyin mümkünsüzlüyü nəticəsində qorxu ilə səciyyələnən yeni fobiyadır. Telefonun qida bloku qurtarmış, şəbəkə itmiş və ya o haradasa unudulmuş, nəticədə insanda panika, narahatlıq yaranır.**

Hələ 2008-ci ildə aparılmış tədqiqatlar göstərmişdi ki, insanların 53 faizi telefonunu heç vaxt söndürmür, 9 faizi isə telefonsuz çox ciddi əsəb keçirir.

Qenui Universiteti bu fobiyanı diaqnostik və statistik dərsliyin psixi xəstəliklər üzrə növbəti buraxılışına daxil edilməsini təklif edir.

Alimlər 15 ildə telefonundan bir saniyə belə ayrılmayan braziliyalını nümunə gətirirlər. O, yalnız telefonla özünü təhlükəsiz hiss edirmişdir. Psixiatrlar onun vəziyyətini qismən də olsa yaxşılaşdıra bilsələr də (panik hallar azalmışdı), lakin fobiyanı müalicə edə bilməmişdilər. Həmin şəxs telefonu əlinin altında olmayanda özünü narahat, həyəcanlı hiss edir.

Bu, ailə və ya dost-tanışlarla əlaqə yaratmaq mümkünlüyündən asılılıqdır. Və ya yaxınların telefon sahibi ilə xüsusən də fövqəladə hallarda əlaqə yaratmayacağından irəli gələn qorxudur.

# Gənc tibb alimlərinin elmi işlərinin məcmuəsi çap olunacaqdır

Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunda gənc alimlərin növbəti elmi-praktiki konfransı keçirilmişdir.

İnstitutdan AzərTAc-a bildirmişlər ki, konfransda rezidentlər və kafedraların gənc əməkdaşları təbabətin müxtəlif problemlərinə həsr olunmuş məruzələrlə çıxış etmişlər.

Eyni zamanda, konfransda institutda çalışan gənc elmi işçilər arasında keçirilmiş ən yaxşı elmi məqalə müsabiqəsinin qalibləri təltif olunmuşlar.

Konfransın materialları əsasında gənc alimlərin elmi işlərinin məcmuəsi çap ediləcəkdir.

# Rusiyalı mütəxəssislər tərəfindən Bakıda laborator diaqnostika üzrə kurslar keçirilir

**Rusiya Federasiyasının Diplomdan sonrakı Tibb Akademiyasının mütəxəssisləri tərəfindən iyun ayının 9-dan etibarən Bakıda laborator diaqnostika, eləcə də şüa diaqnostikası üzrə kurslar təşkil olunmuşdur.**

Səhiyyə Nazirliyinin mətbuat xidmətindən AzərTAc-a bildirmişlər ki, kurslarda Azərbaycanın dövlət xəstəxana və tibb mərkəzlərində çalışan, ən azı öz ixtisası üzrə 3-5 il iş təcrübəsi olan, rus dilini yaxşı bilən mütəxəssislər iştirak edirlər.

Kurslar Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi ilə Rusiya Federasiyasının Diplomdan sonrakı Tibb Akademiyası arasında imzalanmış sazişə əsasən keçirilir.

Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunda keçirilən kurslar iyunun 28-də başa çatacaqdır.

# Fransanın internet portalında Naftalan neftinin və Abşerondakı palçıq vulkanlarının möcüzəsindən bəhs edən məqalə yerləşdirilmişdir



**Fransanın internet portalında "Euronews"un fransız dilindəki variantına istinadla Azərbaycanda insanlara şəfa verən Naftalan nefti və Abşerondakı palçıq vulkanlarından bəhs edən məqalə yerləşdirilmişdir.**

Azərbaycanın yeraltı sərvətlərlə zənginliyindən söhbət açılan məqalədə onların sırasında neftdən yalnız yanacaq kimi deyil, eyni zamanda, insanların sağlamlığı məqsədilə istifadə edildiyi, Naftalan neftinin, Qobustan rayonu ərazisindəki palçıq vulkanlarının möcüzəli xüsusiyyətləri diqqətə çatdırılmışdır.

Məqalədə qədim İpək Yolu üzərində yerləşən bu sağlamlıq ocağı ilə bağlı rəvayət xatırlanmış, Naftalan neftinin yanmamaq kimi nadir xüsusiyyətindən bəhs olunmuş, bir çox xəstəliklərin müalicəsi məqsədilə neft vannalarından istifadə edildiyi diqqətə çatdırılmışdır. Həmçinin tərkibində parafin olmayan və benzin funksiyasını yerinə yetirməyən Naftalan neftinin qan dövranının yaxşılaşdırılmasında, dəri, yel və digər xəstəliklərin müalicəsində əvəzsiz rolu vurğulanmış, dünyanın müxtəlif guşələrindən, xüsusilə Rusiya və Ukraynadan ağır xəstələrin burada şəfa tapmaları bildirilmişdir.

Neftlə müalicə aparan ilk klinikanın 1929-cu ildə açıldığı, sovet hakimiyyəti illərində çox populyar olduğu da diqqətə çatdırılmışdır.

Yazıda Azərbaycanda insanların sağlamlığı üçün palçıq vulkanlarından da geniş istifadə edildiyi bildirilmişdir. Dünyada bu tip vulkanların ölkəmizdə daha çox olduğu, müxtəlif adda 300 formada belə vulkanın mövcudluğu, onların arasında ən əsas və mühüm müalicəvi əhəmiyyətə malik Qobustan ərazisindəki Daşgil vulkanının adı vurğulanmışdır.

Məqalədə palçıq vulkanının müalicə əhəmiyyətli müxtəlif elementlərlə zənginliyi, ondan tibb sahəsində, kosmetik məqsədlərlə geniş istifadə olunduğu, xəstələrin ilboyu palçıq vannası qəbul etmək imkanları diqqətə çatdırılmışdır.

Məqalədə "Gazelli" firması tərəfindən palçıqdan hazırlanan kosmetik məhsulların geniş yayıldığı və ondan daha çox dərinin cavan qalmasında istifadə olunduğu, palçıq vulkanlarını təkcə xəstələrin deyil, Azərbaycana gələn turistlərin də ziyarət etdikləri bildirilmiş, mütəxəssislərin palçıq vulkanlarının xüsusiyyəti barədə fikirlərinə yer verilmişdir.

**Məqalənin tam mətni ilə aşağıdakı linkə daxil olmaqla oxumaq mümkündür:**

video.planet.fr/a-la-une-petrole-boue-de-volcan-lazerbaidjan-veut-faire-de-bien.638187.12214.html

# Fransa alimləri insanın daxili orqanlarını göstərən güzgü ixtira etmişlər

Fransanın Paris-Sud Universitetinin alimləri insanın daxili orqanlarını göstərən üçölçülü rəqəmsal güzgü sınaqdan keçirirlər.

Əvvəlcə rentgen və maqnit-rezonans tomoqrafiyasının köməyi ilə irəlicədən toplanmış və işlənmiş şəkillər ekrana çıxarılır, sonra ekranda daxili orqanların və sümüklərin avatarı əks olunur.

Alimlər hesab edirlər ki, onların ixtirası təbabətdə istifadə olunacaq, məsələn, cərrahiyyə əməliyyatlarına hazırlaşmağa kömək edəcəkdir.

# Şokolad insanın emosional əhvalını dəyişmir



Şokolad və dondurma vasitəsilə əhvalı yüksəltmək mümkün olmayacaq – Amerika tədqiqatçıları Psixologiya Fənləri Assosiasiyasının xüsusi iclasında bu şirniyyat həvəskarlarını heyrətləndirən belə bir bəyanat vermişlər.

Amerikalı tədqiqatçılar dəfələrlə bildirmişlər ki, bu sevimli şirniyyatlar insanın emosional əhvalını dəyişmir. Bunu sübut etmək və istehsalçıların uydurmasını təkzib etmək üçün onlar xüsusi və orijinal eksperiment aparmışlar.

Qeyri-adi tədqiqat üçün könüllülərdən ibarət bir qrup yaradılmışdır. Bir həftə insanlar adət etdikləri müxtəlif qidalar qəbul etmiş, adi rejimdən kənara çıxmamışlar. Rəy sorğusunun nəticələri yığıncaqda tədqiqatçıların söylədiklərini təsdiq etmişdir.

Əsas səbəb psixoloji amil və insanın yemək həvəsidir. İnsanın əhvalındakı dəyişikliklə qidanın heç bir əlaqəsi yoxdur. Amma bu tədqiqat heç kəsi həmin şirniyyatlardan imtina etməyə çağırmır və buna məcbur etmir.

## Etibarsız sayılır

Stomatologiya fakültəsinin V kurs, $723^a$ qrup tələbəsi Cəfərli İsrafil Yaqub oğlunun adına verilmiş qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

Əliyeva Aytən Çingiz qızına 2008- ci ildə Azərbaycan Tibb Universiteti tərəfindən finksional diaqnostika ixtisası üzrə verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Stomatologiya fakültəsinin V kurs, $725^a$ qrup tələbəsi Rəsul qaedi Kuşkinin adına verilmiş qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

Stomatologiya fakültəsinin V kurs, $721^b$ qrup tələbəsi Əli Xəlinin adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

II müalicə profilaktika fakültəsinin II kurs, $303^a$ qrup tələbəsi Əhmədova Qənirə Novruzəli qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

# Beyinin fəaliyyətini yaxşılaşdıran qidalar



Araşdırmalar sübut edir ki, bəzi qidaların daim qəbulu insanın əqli fəaliyyətini və yaddaşını yaxşılaşdırır, streslə mübarizədə kömək edir, əhval-ruhiyyəsini yaxşılaşdırır.

Umumillikdə bu qidaların qəbulu beyini sağlam vəziyyətdə saxlamağa kömək edir.

**Beləliklə, bizim beynimiz bu məhsulları "xoşlayır":**

- Balıq və digər dəniz məhsulları (krevet, istridiyə və s.) beyin üçün olduqca xeyirlidir. Bu qidaların tərkibində olan əvəzedilməz omeqa 3 yağlı turşular beyinin fəaliyyəti üçün "hava kimi" lazımdır.
- Giləmeyvələrin bir çox hissəsi "antioksidant" adlandırılan maddələrlə zəngindir. Bu maddələr sərbəst radikallarla mübarizə aparır. Sərbəst radikallar insan orqanizminin hüceyrələrini zədələyən atomlar toplusudur. Həkimlər məhz onları xərçəngin inkişafında, ürək-damar sistemi xəstəliklərində, qocalıq ağıl zəifliyində "günahlandırır".
- Qoz-fındıq beyin üçün çox xeyirlidir. Bu məhsulların arasında beyin üçün ən faydalı olan qozdur.

Qoz-fındıq dedikdə biz həmçinin araxis, keşyu, badam və s. nəzərdə tuturuq. Onlar da omeqa 3 və omeqa 6 yağlı turşularla zəngindir. Bundan əlavə onlar $B_6$ və E vitaminlərinin zəngin mənbəyidir. Qoz-fındıq beyinin fəaliyyətini yaxşılaşdırır, insanın əhval-ruhiyyəsini qaldırır, depressiyadan çıxmağa kömək edir. Bu səbəbdən həkimlər əqli fəaliyyəti ilə məşğul olanlara, məktəbdə oxuyan uşaqlara və tələbələrə bu məhsulları hər gün qəbul etməyini tövsiyə edirlər (gün ərzində bir ovuc qoz-fındıq kifayətdir).

- Günabaxan, kətan, küncüt, balqabaq tumları yaddaşı möhkəmləndirir, beyinin fəaliyyətini yaxşılaşdırır.
- Müxtəlif dənli bitkilər fol turşusu və B qrupu vitaminləri ilə zəngindir ki, insanın yaddaşını və umumillikdə insanın zehnini yaxşılaşdırır. Dənli bitkilərin arasında beyin üçün ən xeyirli olanlar bunlardır - yulaf yarması, arpa yarması, qəhvəyi düyü və s.
- Tünd şokolad beyinin əsas "dostlardan" biri sayılır. Bu növ şokolad antioksidantlarla zəngindir. Şokolad insanın diqqətini və yaddaşını yaxşılaşdırır, beyini qan təchizatına müsbət təsir edir.
- Yumurta zülal və A, D, E, B qrupu vitaminlərlə, lesitinlə zəngindir. Bu maddələr beyində yaşla əlaqəli olan dəyişikliklərlə mübarizə aparır.
- İspanaq, kahı, brokkoli kələmi, avokado, sarımsaq, kök, pomidor, üzüm da beyinin funksiyalarına çox müsbət təsir edir.
- Ekzotik karri ədviyyatı antioksidantlarla zəngindir ki, beyinin qocalması ilə mübarizə aparır.
- Qəhvə də beyinin fəaliyyətini yaxşılaşdırır və stimullaşdırır. Qəhvənin gündəlik qəbulu (təbii ki, az miqdarlarda - 1-2 fincan gün ərzində) Alsqeymer xəstəliyi kimi ağır xəstəliyin profilaktikasıdır. Alsqeymer xəstəliyi adətən yaşlı insanlarda inkişaf edir. Bu xəstəlik zamanı beyinin hüceyrələri kütləvi şəkildə məhv olur ki, nəticədə ağıl zəifliyi inkişaf edir.
- Yaşıl çay xüsusi maddələr "katexinlər" (beyini tonuslaşdırır) və antioksidantlarla zəngindir. Gün ərzində 2-3 yaşıl çay fincanı qəbul edə bilərsiniz.

Baş redaktor
ELDAR İSMAYIL

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
*Əlyazmalar geri qaytarılmır.*

Qəzet "Təbib" qəzetinin kompyuter mərkəzində yığılır, səhifələnir, "Bəxtiyar-4" İKŞ-də çap olunur.

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 100
2-ci mərtəbə,
tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya N - 022633
İndeks -0269
Sayı 4000
Sifariş: 157